# BABA OCAĞI - MÜQƏDDƏS MƏKAN

**Fəlsəfə doktoru, dosent Tahir Orucovun redaktorluğu ilə "Elm və təhsil" nəşriyyatında çapdan çıxmış "Baba ocağı" romanını diqqətlə oxudum. İndiyəcən tədqiqatçı, şair kimi tanıdığım Nizami Muradoğlunu (Məmmədovu) bir nasir kimi də tanıdım. Daha düzünü-ürəyimə gələn səmimi bir duyğunu utana-utana da olsam, dilimə gətirəcəyəm. Deyəsən, Süleyman Rüstəmin sözüdür, rəhmətlik Bəxtiyar Vahabzadəyə xitabən deyirdi ki, "Qatlayıb dizinin altına qoyar Alim Bəxtiyarı şair Bəxtiyar".**

Bu fikirlərin təqlidi kimi deyim ki, "Baba ocağı" romanından aldığım xoş təəssürat da mənə Nizami Muradoğlu haqqında belə bir duyğu aşıladı ki, bu mənsur əsər bir nasir kimi tədqiqatçı-şair Nizami Muradoğlunu "qatlayıb dizlədi". Amma bu fikrə bir əlavə etməsəm, o da mənim tərəfimdən insafsızlıq olar. Əslində Nizami Muradoğlunun bütün yazdıqlarını qatlayıb bir qırağa qoysaq, təkcə bu "Baba ocağı" romanı ilə o, həm nasir, həm də elə şair-tədqiqatçı kimi özünə vəsiqə qazana bildi. Çünki nəsr əsəri kimi "Baba ocağı" sıradan bir ədəbi nümunə deyil, əsərin dilindəki bir sıra incə çalarlar, ədəbi detallar roman müəllifinin şairanə təbiətini açıb ortaya qoyur. Bu da onun şairlik keyfiyyətinin nəsr dilindəki təzahür formasıdır. Digər tərəfdən isə "Baba ocağı" janrına görə tarixi romandır. Burada cərəyan edən əhvalatlar tarixi hadisələrin, gerçəkdən baş vermiş olayların işığında cərəyan edir. Bu tarixi dövrü bədii əsərə gətirmək isə, hər şeydən öncə, yazardan bir tədqiqatçı fədakarlığı tələb edirdi. Bu mənada N.Muradoğlu XX əsrin əvvəllərində əsasən özünün ata-baba yurdu olan Ordubadın Əylis kəndi və ona qonşu olan ətraf ərazilərdə baş verən qanlı qırğınları - ermənilərin təcavüzkar əməllərini və bu zorakılığın qanlı nəticələrini ağır zəhmətə qatlaşaraq dərindən öyrənmiş və bu hesaba da həmin tarixi mərhələni reallığı ilə təsvirə gətirib canlandırmağa nail olmuşdur. Bax buna görə də "Baba ocağı" adlı tarixi əsərində müəllifin sənətkarlığı təkcə nasir kimi özünü göstərmir, eyni zamanda həssas təbiətli bir insanın düşüncələrini tarixi reallığın bədii əksi planında nümayiş etdirir. Başqa sözlə, "Baba ocağı" Nizami Məmmədovun özünün baba ocağına bir oğulluq borcunu ödəmək missiyasını əks etdirir. O, bu borcu burada tarixi hadisələrin tədqiqatçısı olmaqla bir alim-tədqiqatçı kimi, eyni zamanda bu hadisələrə ədəbi don geyindirib roman janrında təqdim etməklə bir nasir, yazıçı kimi və üstəlik də bu ədəbi yaradıcılıq prosesində özünün lətif, incə şairanə duyğularını da əsərin ruhuna yoğurub-qatmaqla bir şair kimi ödəyib. Bir sözlə, N.Muradoğlu indidən belə əlinə qələm alıb heç nə yazmasa da, yaxud da "Baba ocağı"ndan əvvəl yazıb-yaratdıqlarının üstündən xətt çəksə belə, yenə bununla belə özünə bu kitabla ədəbi mənəvi yaşarılıq pasportu əldə etdi.

"1906-cı ilin bir yaz gecəsiydi. Dadaş yatıb bir yuxu gördü. Əyliscayın kənarında dayanmışdı. Birdən göy guruldadı, şimşək çaxdı, yağış yağmağa başladı. Yağış o qədər şiddətləndi ki, leysana döndü, Dadaşın ayağının altındakı torpaq sürüşdü, Dadaş çayın ortasına düşdü, dalğalar onu ağuşuna alıb apardı. Əyliscayın suları qan rəngində idi, yox, deyəsən Əyliscaya qan axırdı, qan sel kimi axırdı. O qan Dadaşın ağzından qarnına dolurdu, Dadaş qan içində boğulurdu" (səh.6).

Romanın "Tövbə" adlandırılan birinci hissəsi bu abzasla başlayır. Əsərin baş qəhrəmanı Dadaş - əsl adı Rövşən olan bu gəncin yuxusunun təsviri ilə başlaması təsadüfi deyil. Birincisi, yuxu müqəddəsdir, bu müqəddəs yuxu işığında müəllif roman boyu baş verəcək real gerçəkliklərin ümumi mənzərəsini cızır və hadisələrin ümumi məzmununun bu istiqamətdə baş verdiyinin şahidi oluruq. İkincisi, ikiadlılıq mifik düşüncədən tutmuş ta ədəbi-bədii dünyagörüşlərimizə kimi, habelə real müasir həyatımızda da xarakterik haldır. Bu iki adlılığın arxasında müəyyən ədəbi-bədii mətləblərin dayanması da bir priyomdur. Lakin başlanğıc cümlənin "1906-cı ilin yaz gecəsi" şəklində verilməsi də bəri başdan onu nişan verir ki, roman tarixi hadisələrə və tarixi faktlara isnad edilməklə qələmə alınmışdır. Buna görə də əsərin qəhrəmanı Dadaşın əsl adının Rövşən olması reallığı əks etdirir. Amma real hadisələrə yazıçı müdaxiləsi kimi bədii təfəkkür aktını nəzərə aldıqda, ola bilər ki, Nizami Muradoğlu burada baş qəhrəmanın əsl adının Rövşən olmasını bir simvol kimi vermişdir. Nəyə görə bu qənaətə gəlirəm? Əsərdən bir parçaya da diqqəti yönəldib sonra fikrimi açıqlayacağam:

"Dadaş (Rövşən - Ş.A.) hələ uşaq ikən eşitmişdi ki, Ordubad müqəddəs yerdir. Bu torpaqda dövrü-qədimdən üləmalar çox olduğundan, Yaxın Şərqin diqqət mərkəzində idi. Arazın cənubunda yaşayanlar Ordubada sehrli bir yer kimi baxırdılar. Deyirdilər ki, İranın münəccimləri göydən bir bəla gəldiyini müşayiət edəndə camaatı məscidlərə yığıb dua edərmişlər ki, "Xudavəndi-aləm, bu bəlanı Ordubada göndər". Səbəbini soruşanlara cavab verərmişlər ki, bəs sən demə Ordubadda o qədər çox üləma, mürşid, seyid övladı var ki, bəla Ordubada çatınca sovuşar, heç bir ziyan verməz. Belə ki, Ordubad camaatı çox inamlı və imanlıdır. Dadaş özü də uşaq vaxtı bunları görmüşdü. Ancaq gəncliyindən bu yerləri tərk edib gedəli iyirmi il ötmüşdü" (səh.7).

Göründüyü kimi, müəllif hadisələrin baş vermə məkanını - baba ocağı Ordubadı müqəddəs sehirli bir yer kimi təsvir edir və dini-mifik inanclarla əlaqəli şəkildə bunun izahını verir. Belə olan təqdirdə isə bir daha yuxarıda deyəcəyim fikrimə əsas zəmin yaranır. Koroğlu xalqımızın mifik-tarixi təfəkküründə yenilməz qəhrəmandır və onun da əsl adı Rövşəndir. Belə yanaşma ilə düşündükdə folklorumuzdakı Koroğlu-Rövşən ikiadlılığı Nizami Muradoğluda Dadaş-Rövşən ikiadlılığı variantında üzə çıxır. Bundan əlavə, şair Hafiz Baxışın sözlərinə bəstələnmiş musiqidən bir parçanı da yadımıza salaq:

**Cavanşirəm, Babəkəm,**
**Nəbiyəm, Koroğluyam,**
**Azərbaycan oğluyam.**

Burada xalq qəhrəmanlarının adları sadalanır və bunların yenilməz Azərbaycan övladı olmaları vurğulanır. Bununla şair zamanbazaman xalq qəhrəmanlarının bir-birinin yerinə gəldiyini, əvəz etdiyini söyləyir. Nizami Muradoğlunun Rövşəni də məhz bu cür yenilməz, baba ocağını yağılardan qoruyan igid qəhrəmandır və müəllif əsərin məzmunu ilə həm də Koroğlu yurdunda - baba ocağında Koroğlumisilli Rövşənlərin yenə də olduğu ideyasını aşılayır. Yuxarıdakı misralarda sadalanan Cavanşir, Babək, Nəbi, Koroğlu - hər biri öz zəmanəsinin misilsiz qəhrəmanları olan bu igidlərin timsalında "Baba ocağı" romanında da Koroğlunun - Rövşənin adaşı öz tarixi misilsiz qəhrəmanlığı ilə sübut edir ki, o da öz zamanının Koroğlu qeyrətli Rövşənidir. Yəni mifik qəhrəman olan Koroğlunun ölməzliyi ilə tarixi qəhrəman olan Rövşənin də ölməz olduğu ideyası üst-üstə düşür. Mifik qəhrəmanlar ölmədiyi kimi tarixi qəhrəmanlar da qəhrəmanlıq estafetlərini zamanbazaman bir-birlərinə ötürməklə bu ölməzliyi təcəssüm etdirirlər. N.Muradoğlunun "Baba ocağı"ndakı ədəbi uğurunun biri də bu meyarla səsləşir.

Baba ocağı romanının adına uyğun olaraq burada təsvir edilən baba ocağı Əylis haqqında, Ordubadla bağlı Rövşənlə erməni Stepan arasında gedən söhbət əsnasında maraqlı tarixi-elmi məlumatın verilməsi özü də baba ocağına oxucuda dərin məhəbbət aşılamağa xidmət edir:




- Stepan, mən Əylisdə doğulmuşam. Əylis eşitmisən?
- Akulis?..
- Akulis yox, Ağ-ulus

Bu kənd Elxanilərin hakimiyyəti dövründə xanədan mənsublarının, hətta ondan öncəki xanədanların, daha sonra Səfəvilərin, Qacarların istirahət düşərgəsi olub. O zamanlar xanədan mənsublarına ağuluslular, ağevlilər deyirdilər. Cəmiyyətdə təbəqələşmə getmişdi: ağuluslular, bozuluslular, qarauluslular. Yüksək hakimiyyət təmsilçiləri, onların ailələri, qohum-əqrəbaları ağuluslular adlanırdı. Bu kəndin ab-havası, təbii gözəlliyi, meyvə-tərəvəzinin əvəzsiz tamı ağulusluların diqqətini cəlb etmişdi. Bu kənddəki məbədlər, məscidlər, üç günbəzli hamam, kəhrizlər sistemi, su-kanalizasiya təsərrüfatı böyük intibahdan xəbər verir. XVII-XVIII əsrlərdə Əylis Şərqin ən qabaqcıl şəhərləri sırasına daxil edilmiş, ipəkçilik xüsusi inkişaf etmişdi. Ordubada Səfəvilərin hakimiyyəti dövründə xüsusi önəm verilirdi. Şah Abbasın vəziri Mirzə Hatəm bəy də Ordubadlıydı. Nəsirəddən Tusi də ordubadlı imiş. Şah Abbas Ordubad bölgəsinin vergilərdən azad edilməsi haqda fərman vermişdi. Hülaki xanın zövcəsi Doqquzxatun xanım yay istirahətini çox zaman Əylisdə keçirirmiş (səh.13-14).

Bu minvalla tarixi bilgi sayəsində yazıçı oxucuda əsərdə təsvir olunan baba ocağı Ordubad və Əylis haqqında maraq və məhəbbət oyadır və bu tarixi dədə-baba torpaqlarımızın erməni təcavüzündən qorunması yolunda aparılan mübarizə bütün təfsilatı ilə əsər boyu nəql olunur. Əsərin baş qəhrəmanı Rövşən də bu mübarizənin mərkəzində olur.

20 il baba ocağından kənarda yaşayan Rövşən yenidən doğulduğu yurda dönür, eyni zamanda günah işlərdən çəkinib tövbə etmək üçün din xadimləri ilə görüşür, deyir ki, "mənim bir arzum var, tövbəmin bu dünyada qəbul olunduğunu bilmək istəyirəm. Mənim tövbəmin qəbul olunduğuna zəmanət verə bilərsinizmi? Mən tövbəmin qəbul olunduğunu necə görə bilərəm?" (səh.95).

Bu sualın müqabilində Mirzə Tahir Əfəndi bir xeyli fikrə dalıb, "Bu günə qədər belə bir şey nə eşidilib, nə də görülüb" deyir. Daha sonra yaşlı, dünyagörmüş adamlara bu barədə müraciət etməyi məsləhət bilir, "Cəvizli tərəfdə dağın döşündə bir kəlisa var", - deyə ora getməyə yol göstərib deyir:

- Mən babamdan eşitmişdim ki, o kəlisanı Elxanilərin zamanında Hülakü xanın baş hərəmi Doqquzxatun xanım tikdirib. Doqquzxatun xanım nəsrani dininə mənsub türklərdən - ərmən tayfalarındandı, xeyriyyəçiliklə məşğul olub, kəlisalar tikdirirmiş. Bizim bu kəndə də hər yayda xanədan mənsubları dincəlməyə gələrmişlər. Bir yay Doqquzxatun xanımın özü də burada istirahət etməyə gəlir. Doqquzxatun xanımın canında son zamanlar ağrıları artmışdı. Bu kəndin səfalı havası, şəfalı suları Doqquzxatun xanımın ağrılarını canından çıxarır. Burada onu narahat edən xəstəlikdən şəfa tapan baş hərəm bu kəlisanı tikdirmək qərarına gəlir. Üstəlik İsfahandan bura dini alimlər gətirir, özü də tez-tez gəlib burda yaşayır, bu kəlisada ibadət edərmiş.

Həmin kəlisada Mikayıl adında o vaxt gələn alimlərin nəslindən olan bir abid var, nəsranidir, türkdür, ərmən tayfasındandır, haylardan deyil, amma indi haylar onu özlərindən sayırlar. O abid çox dünyagörmüş adamdır. Həftədə bir dəfə adamlarla görüşüb dərdlərinə qulaq asar, qalan günləri ibadətlə məşğul olar, dualar oxuyar, o dualar da həpsi qədim türk lisanındadır. İstəsən bir onunla da məsləhətləşə bilərsən (səh.96-97).

Bu sitatı həm də ona görə burda misal gətirdim ki, mən hardasa 4-5 il bundan əvvəl mətbuatda çıxış etdiyim "Ermənilər hayların qurbanlarıdır!" mövzusundakı yazımda qaldırdığım problemin bədii əsərdə inikasını gördüm. Yazımın başlanğıcında "Baba ocağı" romanının müəllifinin burada tədqiqatçılıq baxışlarının da özünə yer aldığını əbəs yerə qeyd etməmişdim. Bu və bu kimi parçalara əsərdə yeri gəldikcə rast gəlindiyi səbəbindən mən o fikri yürütmüşdüm. Mikayıl adlı abidlə bağlı söylənilən "o abid nəsranidir, türkdür, ərmən tayfasındandır, haylardan deyil, amma indi haylar onu özlərindən sayırlar" məzmunlu ifadələrin arxasında çox böyük incə elmi mətləblər dayanır ki, bu haqda yuxarıda adını çəkdiyim məqaləmdə genişliyilə bəhs açdığımdan, bir daha bu mövzuya qayıtmıram. Ancaq Nizami Muradoğlu bu mövzu ilə bağlı romanda təkrar-təkrar bədii dönüşlər etmişdir ki, bu hal təqdiredici hal olub, oxucularında da bu yöndə maraq oyatmağa xidmət edir. Məsələn, romanın "Qanlı daş" adlandırdığı 2-ci hissəsində Əylisdə Novruz bayramı münasibətilə taxta oturdulmuş Xanılı xanın (əsil adı Xəlil olan bu qaraqabaq kişinin) dilindən verilən camaata Novruz təbriki ilə bağlı nitqindən bir parçaya diqqət edək:

"Biz hesab edirik ki, bu bayram bizimlə birgə yaşayan, işləyən, çalışan bütün xalqların nümayəndələrinin bayramıdır. Əylisdə yerli Azərbaycan türkləri ilə yanaşı nəsrani ərmən türk tayfalarının, musəvi zoqların və hayların da nümayəndələri yaşayır. Biz onları da bu gözəl bayram münasibətilə təbrik edirik. Əylisdə yaşayan hər bir ailəyə, milliyyətindən asılı olmayaraq hər bir vətəndaşımıza bayram sevincləri arzu edirik. Novruz bayramınız mübarək olsun!" (səh.149).

Göründüyü kimi, yazıçı burada da nəsrani ərmən türk tayfaları ilə təcavüzkar haylar arasında çox ciddi milli fərqlər olduğunu oxucuların nəzərinə çatdırır. Bu da tarixi-elmi həqiqətləri bədii dərk vasitəsilə maarifləndirmə missiyası daşıyan müsbət cəhətlərdən biri kimi alqışlanmalıdır.

Nizami Muradoğlu romanda qəhrəmanın əhvalına müqabil olaraq təbiət təsvirlərindən də bədii priyom kimi yararlanmağı bacarır, bu zaman ülvi poetik duyğular ağuşunda könüllərin sarı simini tərpədib nostalji bir ovqat da yaratmağa nail olur:

"Axşam çağıydı. Günəş Arsı dağının arxasında qürub edirdi. Əylisdə Günəş qürub edəndə həmişə Arsı dağının üstündəki buludlar əsrarəngiz rəng alırdı. Rövşən bəy uşaqlıqdan Günəşin qürub etdiyi anları seyr etməyi sevirdi. Bu gün də eyvanda əyləşib Günəş batarkən buludların aldığı sarı, çəhrayı rəng çalarlarına baxır, gəncliyinin qayğısız, xoşbəxt anlarını xatırlayırdı. O zaman bu vaxtları Selcanla birlikdə Camışboğanda qarşılayardılar. Belə anlarda Selcan Rövşənin sinəsinə sığınar, Rövşən də Selcanın çiyninə düşən xurmayı saçlarını sığallayar, öpər və qoxlardı" (səh.161-162).

Oxuculara burada incə bir məqamı anlatmaq istərdim. Günəş səhər-səhər doğarkən ətrafa saçdığı şüalara şəfəq desək də, əslində fələq adlanmalıdır; günəş batarkən-qürub edərkən saçdığı şüalar-şölələr isə şəfəq adlanır. Biz Azərbaycan dilində Günəşin hər iki halında - istər səhər çağı, istərsə də qürub anında saçdığı şüaları şəfəq adlandırırıq. Ancaq ərəbcə bunları fərqli adlarla - fələq və şəfəq adları ilə adlandırırlar ki, bu fərqin mahiyyətinə çox vaxt varmırıq. Nizami müəllim yuxarıdakı abzasdakı təsvirdə isə günəşin şəfəq saçması anında təbiətdə yaranan əsrarəngiz çalarları ustalıqla təsvir etmişdir ki, bu da yazıçı müşahidəsinin məhsulu kimi dəyərləndirilməlidir. Ancaq müşahidə yazıçı müşahidəsidirsə də, yaradılan poetik lövhə şairanə duyğuların inikası olduğundan, oxucu könlünü rəxnəyə salıb, riqqətə gətirir. Nəsrin dili ilə danışsa da, şair kimi əsrarəngiz ovqat yarada bilir. Bəlkə də yaradıcılığa şeirlə başlayan yazıçıların - nasirlərin dillərindəki cazibədarlığın bir sirri də bundadır ki, adi təbiət təsvirlərində belə poetik hisslər aşılaya bilirlər. Yəqin Nizami Muradoğlunun nəsrindəki şirinliyin səbəbi də onun şairlik siması ilə sıx bağlıdır. Yaradıcılığa şeir üstündə start verməsi ilə əlaqəlidir. Bu səbəbdən də N.Muradoğlu "Baba ocağı" romanında təkcə tədqiqatçı, ya nasir kimi yox, elə həm də şairanə duyğuların izharını verən müəllif kimi özünü oxucusuna sevdirir. Ürəyindəki şairanə duyğuları nasir kimi oxucularla bölüşə bilmək yazardan xüsusi istedad istəyir. "Baba ocağı"nda bu cür xüsusi istedad nümayiş etdirən Nizami müəllimə bu istiqamətdə bol-bol yaradıcılıq uğurları arzulayıram!


**Şakir ALBALIYEV,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent,**
**AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi**